# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsinin verilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

# Qərar № 228

***Bakı şəhəri, 12 oktyabr 2012-ci il***

«Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli fərmanının 1.1.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

«Ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsinin verilməsi Qaydaları» təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur RASİ-ZADƏ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (14 oktyabr 2012-ci il, № 231) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir ( 31 oktyabr
2012-ci il, № 10, maddə 1010) («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2012-ci il 12 oktyabr tarixli*
*228 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsinin verilməsi Qaydaları

## 1. Ümumi müddəa

Bu qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (bundan sonra — Gömrük Məcəlləsi) 102.3-cü və 102.4-cü maddələrinə və Gömrük Məcəlləsinin digər müddəalarına əsasən hazırlanmışdır və ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanları tərəfindən icazənin verilməsi qaydalarını müəyyən edir.

## 2. İcazənin verilməsi şərtləri

2.1. Gömrük orqanları tərəfindən icazə şəxslər tərəfindən aşağıdakı şərtlərə əməl edildikdə verilir:

2.1.1. icazənin verilməsi üçün əsaslandırılmış müraciət təqdim olunduqda;

2.1.2. gömrük nəzarətinin həyata keçirilməsi üçün zəruri imkanlar yaradıldıqda;

2.1.3. həmin icazənin verilməsi üçün müəyyən edilmiş bütün tələblər yerinə yetirildikdə.

2.2. Gömrük orqanı tərəfindən icazə şifahi, kağız üzərində yazılı və ya elektron formalarda verilir.

2.3. Malların Gömrük Məcəlləsi ilə müəyyən edilmiş gömrük proseduru altında yerləşdirilməsi üçün icazənin verilməsi tələb olunduqda, həmin icazənin verilməsi bu prosedura dair qaydalar əsasında tənzimlənir.

2.4. Ayrı-ayrı gömrük əməliyyatının və gömrük prosedurunun aparılması ilə bağlı icazənin alınması üçün şəxs tərəfindən şifahi, kağız üzərində yazılı və ya elektron formada gömrük orqanına müraciət edilir.

2.5. İcazənin alınması üçün mallara dair səlahiyyəti olan şəxs və ya bəyannaməçi müraciət edə bilər.

## 3. İcazələrin rəsmiləşdirilməsi

3.1. Gömrük Məcəlləsinə əsasən ayrı-ayrı gömrük əməliyyatı və gömrük prosedurunun aparılması ilə bağlı gömrük orqanının icazəsi tələb olunduğu hallarda şəxs tərəfindən əvvəlcədən gömrük orqanına müraciət edilir.

3.2. İcazə onun alınması üçün müəyyən edilmiş şərtlərin yerinə yetirilməsindən dərhal sonra verilməlidir.

3.3. Yazılı icazənin alınması üçün müraciət edildikdə, gömrük orqanı tərəfindən müraciətə daxil olduğu tarixdən 3 (üç) iş günü müddətində baxılır və şəxsə kağız üzərində yazılı və ya elektron formalarda icazə verilir.

3.4. Yazılı icazənin alınması üçün təqdim edilən sənədlərdə gömrük məqsədləri üçün kifayət qədər məlumat olduqda, gömrük orqanı tərəfindən əməliyyatın xüsusiyyətindən asılı olaraq həmin əməliyyatın həyata keçirilməsi üçün müvafiq qeydiyyat aparılaraq icazə verilir.

3.5. Gömrük Məcəlləsinin tələblərinin yerinə yetirilməməsi barədə əsas olduqda, icazənin verilməsindən imtina edilir və bu barədə şəxsə əsaslandırılmış səbəb göstərilməklə kağız üzərində yazılı və ya elektron formalarda məlumat verilir.

3.6. İcazənin müddəti əməliyyatın faktiki başa çatması müddəti ilə tamamlanır.

3.7. Gömrük icazəsini ayrı-ayrı hallarda gömrük bəyannaməsi və ya digər mal müşayiət sənədləri də əvəz edə bilər.

---

*© «VneshExpertService» LLC*